*https://doi.org/10.30546/114578.2025.7.231*

# FEİLLƏRİN TƏDRİSİNDƏ LÜĞƏT EHTİYATININ ZƏNGİNLƏŞDİRİLMƏSİ HAQQINDA

**Nabat Cəfərova**
*pedaqogika elmləri doktoru, professor*
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*
*http://Orchid.org/ 0000-0003-0684-9374*
*cafarova_nabat@mail.ru*

**Xülasə**

"Feil" bəhsinin nəzəri aspektdə tədrisi zamanı şagirdlərin ibtidai sinifdə əldə etdikləri biliklərə arxalanmağın böyük əhəmiyyəti vardır. Feilin quruluşu, lüğəvi və qrammatik məna növlərinin olması, təsirli və təsirsiz feillər, feilin zaman kateqoriyası, feilin tərz kateqoriyası, feilin təsriflənən və təsriflənməyən formaları bir nitq hissəsi kimi səciyyəvi cəhətlərinin göstəricisidir. Bütün bunlarla yanaşı, Azərbaycan dilində feillər lüğətin zənginləşdirilməsində çox mühüm yer tutan əsas nitq hissəsidir. "Feil" bəhsini keçərkən müəllim şagirdlərə anlatmalıdır ki, dilimizdə feillər əşyanın hərəkətini (işini, halını) bildirdiyi kimi, həmin hərəkətin (işin, halın) nə vaxt və hansı şəxs tərəfindən icra olunduğunu da göstərir. Feilin zamanlara görə dəyişməsinin izahı həm bir qrammatik kateqoriya kimi feilin zamanları haqqında anlayışı mənimsəməyə, həm də şagirdlərin lüğət ehtiyatının feilin zamanlarına aid feillər hesabına zənginləşməsinə də səbəb olur.

Feillərlə lüğətin zənginləşdirilməsi üzrə iş praktik olaraq ibtidai siniflərdən başlanır. Məktəbə gələn uşaqların lüğət tərkibinin böyük hissəsini feillər təşkil edir və şagirdlər bu dövrdə "hərəkətin adını bildirən sözlər" üzərində əməliyyat aparırlar. Şəkillər üzrə ad bildirən sözlər və onların səs tərkibinin öyrədilməsi, həmin əşyaya aid hərəkət bildirən sözlərlə cümlələrin qurulması savad təliminə hazırlıq dövründə aparılan iş növlərindən biridir.

**Açar sözlər:** feil, feillərin tədrisi, lüğət ehtiyatı, lüğəti zənginləşdirilmək, praktik iş.

# ON ENRICHING VOCABULARY IN TEACHING VERBS

**Nabat Jafarova**
*Azerbaijan State Pedagogical University*

**Abstract**

The article notes that when teaching the subject "Verb" from a theoretical point of view, it is of great importance to rely on the knowledge acquired by students in primary school. The structure of the verb, the presence of lexical and grammatical types of meaning, active and passive verbs, the category of verb tense, the category of verb mood, the infinitive and infinitive forms of the verb are indicators of its characteristic features as a part of speech. Along with all this, verbs are the main part of speech in the Azerbaijani language, which plays a very important role in enriching vocabulary. When discussing the topic of "verb", the teacher should explain to students that in our language verbs not only express the action (state) of an object, but also indicate when and by whom this action (state) was performed. Explaining how verbs change depending on tenses helps students understand verb tenses as a grammatical category and enriches their vocabulary with verbs associated with verb tenses.

Work on enriching vocabulary with verbs begins practically in elementary school. Verbs make up the largest part of the vocabulary of children entering school, and during this period, students operate with "words that denote actions". Teaching words denoting names, based on pictures and their sound composition, as well as composing sentences with words denoting actions associated with a given object, is one of the types of work carried out during the period of preparation for literacy training.

**Key words:** verb, teaching verbs, vocabulary, enriching the lexicon, practical work.

## ОБ ОБОГАЩЕНИИ СЛОВАРНОГО ЗАПАСА ПРИ ОБУЧЕНИИ ГЛАГОЛАМ

**Набат Джафарова**
*Азербайджанский государственный педагогический университет*

**Резюме**

В статье отмечается, что при преподавании предмета «Глагол» с теоретической точки зрения большое значение имеет опора на знания, полученные учащимися в начальной школе. Структура глагола, наличие лексических и грамматических типов значения, активных и пассивных глаголов, категория времени глагола, категория наклонения глагола, инфинитив и инфинитивные формы глагола являются показателями его характерных признаков как части речи. Наряду со всем этим, глаголы

являются основной частью речи в азербайджанском языке, которая играет очень важную роль в обогащении словарного запаса. При обсуждении темы «глагол» учитель должен объяснить учащимся, что в нашем языке глаголы не только выражают действие (состояние) предмета, но и указывают, когда и кем это действие (состояние) было совершено. Объяснение того, как глаголы изменяются в зависимости от времен, помогает учащимся понять времена глаголов как грамматическую категорию и обогащает их словарный запас глаголами, связанными с временами глаголов.

Работа по обогащению словарного запаса глаголами начинается практически в начальной школе. Глаголы составляют большую часть словарного запаса детей, поступающих в школу, и в этот период учащиеся оперируют «словами, называющими действия». Обучение словам, обозначающим названия, с опорой на картинки и их звуковой состав, а также составление предложений со словами, обозначающими действия, связанные с данным предметом, является одним из видов работы, проводимой в период подготовки к обучению грамоте.

**Ключевые слова:** глагол, глаголы обучения, словарный запас, обогащение словарного запаса, практическая работа**.**

**Giriş/Introduction**

Feil semantik cəhətdən son dərəcə dolğun, ən incə məna çalarlarını ifadə etmək imkanı olan, cümlədə konstruktiv, təşkiledici rola malik nitq hissəsidir. Feil həm leksik tərkibinin, həm də qrammatik kateqoriyalarının zənginliyi ilə başqa nitq hissələrindən fərqlənir. İsim kimi feil də nitqdə geniş işlənir. Belə ki, Azərbaycan dili daha çox feillər vasitəsilə öz milli orijinallığını mühafizə edə bilmişdir [Cəfərova, 2023:268]. Azərbaycan dilinin lüğət tərkibində geniş işləklik imkanlarına malik olan feil bəhsi dilin inkişafının cəmiyyətin inkişafı ilə bilavasitə bağlı olduğunu diqqətə çatdırır.

İbtidai siniflərdə feil Dil qaydaları məzmun xəttinə uyğun olaraq "4.1.5. Ad, əlamət və hərəkət bildirən sözləri tanıyır və fərqləndirir"(I sinif), "4.1.5. Ad, əlamət, hərəkət bildirən sözləri qruplaşdırır"(II sinif), "4.1.4. Qrammatik mənalarına görə (isim, sifət, feil, say) sözləri qruplaşdırır"(III sinif) öyrənilir[1, s.3-4, 6].

"Hərəkətin hansı növündən söhbət getsə də, yenə hərəkət hərəkətdir. …Təbii ki, hərəkət feilin obyektidir. Nitq hissələri içərisində ən zəngin olanı feildir"[Xəlilov, 2028:15-16].

Azərbaycan dilinin morfoloji quruluşunda feilin yeri və rolu haqqında

ətraflı məlumat vermək, feilin lüğəvi və qrammatik məna növləri təsirlik, növ, inkarlıq, tərz, zaman, şəkil, şəxs və s kimi kateqoriyaları ilə bağlı bilikləri yeni faktlarla genişləndirmək, kateqorial şəkilçilərin dildə işlənmə ardıcıllığını qanunauyğunluq əsasında mənimsətməyə çalışmaq, dilin lüğət tərkibinin zənginləşməsində feillərin əhəmiyyətini diqqətə çatdırmaq xalqımızın etnomədəni dəyərlərinin əsas göstəricisi kimi təzahür edən frazeoloji vahidlərin dildə yaranma qanunauyğunluqlarını və onların feillərlə əlaqəsini aydınlaşdırmaq, habelə feillərin lüğət quruluşu və sintaktik vəzifələri barədə ətraflı təsəvvür yaratmaqla şagirdlərin lüğət ehtiyatını zənginləşirmək vacibdir [MADF, 2022:3].

Feilin tədrisi zamanı müəllim şagirdlərin feil üzrə lüğət ehtiyatının həcmi və məzmunu ilə tanış olmalı, gələcəkdə onların lüğətinin hansı feillər hesabına zənginləşdiriləcəyini nəzərdə tutmalıdır. Belə ki, əsas nitq hissələrindən biri kimi feilin tərisi zamanı lüğət ehtiyatının artırılmasında onun quruluşca növlərinin öyrədilməsi diqqət mərkəzində saxlanılır. Bildiyimiz kimi, feillər quruluşca üç növə bölünür: sadə, düzəltmə və mürəkkəb.

Sadə fellər bir kökdən ibarət olur: *yaz (mışam), oxu (du), gəl(ir), qaç, get* və s. Həmçinin aşağıdakı fellər də quruluşca sadədir:

*Alışmaq, ağlamaq, anlamaq, barışmaq, bağışlamaq, qızarmaq, qışqırmaq, qaldırmaq, danlamaq, dinləmək, danışmaq, dəyişmək, dağılmaq, düşünmək, yarışmaq, yapışmaq, yırğalamaq, çalışmaq, güləşmək və s.*

Sözdüzəldici (leksik)şəkilçilərin köməyi ilə düzələn feillər düzəltmə feillər adlanır və şagirdlərin  lüğətinin feillər hesabına zənginləşməsində mühüm əhəmiyyət kəsb edir.

Şagirdlərin  lüğətini zənginləşdirən düzəltmə feillər hansı nitq hissəsindən düzəlməsinə görə iki qrupa bölünür:

Birincisi, başqa nitq hissələrindən (isim, sifət, say və s.) düzələn düzəltmə feillər. İkincisi, feildən düzələn düzəltmə feillər.

Birinci qrupa aid düzəltmə feillər aşağıdakı şəkilçilərin köməyi ilə düzəlir:

- la(2): baş-la (maq), yağ-la (maq), göz-lə (mək), iş-lə (mək), iti-lə (mək), təmiz-lə(mək), irəli-lə (mək), gecə-lə (mək) və s.

- lan(2): ağıl-lan (maq), alov-lan (maq), dil-lən (mək), tük-lən (mək), səs-lən (mək) və s.

- laş(2): dost-las (maq), vida-laş (maq), ağır-laş (maq), halal-laş (maq), uzaq-laş(maq), sakit-ləş (mək), bir-ləş(mək), fıkir-ləş(mək), gözəl-ləş (mək) və s.

- al (2) (-1): sağ-al (maq), çox-al (maq), az-al (maq), qara-1 (maq), qoca-1 (maq), düz-əl (mək), gen-əl (mək) və s.

- ar(2): ot-ar (maq), yaş-ar (maq), ağ-ar (maq), boz-ar (maq), göy-ər (mək) və s.

Nümunələrdən göründüyü kimi, -al və -ar şəkilçiləri ilə daha çox sifətlərdən feil düzəlir.

İkinci qrupa aid düzəltmə feillər isə feillərə aşağıdakı şəkilçiləri artırmaqla düzəlir:

-ıl(4): aç-ıl (maq), yaz-ıl (rnaq), səp-il (mək), əz-il (mək), vur-ul (maq), qur-ul (maq), süz-ül (mək), döy-ül (mək) və s.

-ın(4): (-n): al-ın (maq), çal-ın (maq), bil-in (mək), sil-in (mək), yol-un(maq), böl-ün (mək), döy-ün (mək), qoru-n (maq), dara-n (maq), bəzə-n (mək) və s.

-ış(4)(-ş): yaz-ış (maq), qaç-ış (maq), çək-iş (mək), dəy-iş (mək), vur-uş (maq), gör-üş (mək), salamla-ş (maq), ağla-ş (maq), mələ-ş (mək) və s.

-dır(4): yaz-dır (maq), çat-dır (maq), sil-dir (mək), din-dir (mək), poz-dur (maq), gül-dür (mək) və s.

Bu şəkilçilər, əsasən, feilin qrammatik mənə növlərinin şəkilçiləridir[9].

Düzəltmə feillər şagirdlərin lüğət ehtiyatının artırılmasında böyük rol oynayır. Məsələn, isimlərdən və sifətlərdən feillərin düzəldilməsinin tədrisi ilə əlaqədar leksik iş imkanlarından müəllim aşağıdakı kimi istifadə edir:

Yazı lövhəsində qarşı–qarşıya su – sula, yağ – yağla, baş – başla, iş – işlə; təmiz – təmizlə, qara – qarala, şən–şənlən, yaxşı – yaxşılaş(maq) sözlərini yazır. Sonra suallarla şagirdlərə müraciət edir:

- Uşaqlar, su və sulayır sözləri hansı suallara cavab olur? (Su sözü nə? sulayır sözü isə nə edir? sualına cavab verir).

- Su sözü hansı nitq hissəsidir? (isim).

- Bəs sulayır sözü? (feil).

- Doğrudur. Deyə bilərsinizmi ki, sulayır feili hansı nitq hissəsindən əmələ gəlmişdir? (Sulayır feili su ismindən əmələ gəlmişdir).

- Bəs təmiz və təmizlə sözləri hansı suallara cavab olur? (Təmiz sözü necə? təmizlə sözü isə nə et? sualına cavab olur).

- Təmiz sözü hansı nitq hissəsidir? (sifət).

- Bəs təmizlə? (feil).

- Təmizlə sözü hansı nitq hissəsindən düzəldilmişdir? (sifətdən).

- İndi də sula və təmizlə feillərinin necə əmələ gəlməsini izah edin.

Bundan sonra şagirdlər sadə ümumiləşdirmə aparırlar. Sulayır sözünün kökü su, təmizlə sözünün kökü təmizdir. Su sözü nə? sualına cavab olan isim, təmiz sözü isə necə? sualına cavab verən sifətdir. Sula sözü feilin -la, təmizlə sözü

isə -lə şəkilçisini qəbul edərək iş bildirir. Ümumiyyətlə, sula sözü isimdən, təmizlə sözü isə sifətdən düzələn feildir.

Belə ümumiləşdirmə nəticəsində şagirdlər həm sözdüzəldici şəkilçilərlə tanış olur, həm də yeni yaranan feillərlə leksikonlarını artırır, yaradıcılıq, təşəbbüskarlıq göstərirlər.

**Feilin tədrisində şagirdlərin lüğət ehtiyatını inkişaf etdirilməsi.** Feilin tədrisində şagirdlərin lüğət ehtiyatını inkişaf etdirmək üçün aşağıdakı məsələlərə də diqqət yetirilməlidir:

- ayrı-ayrı dil faktları, dil hadisələri üzərində müşahidə, qruplaşdırma və ümumiləşmiş fikir söyləmək üçün situasiyanın yaradılması;
- feilə aid qrammatik əlamətlərin müəyyənləşdirilməsində sözün leksik mənasının nəzərə alınması və s.
- feillərin leksik mənasının şüurlu mənimsənilməsinə xidmət edən çalışmalar üzrə işin təşkili;
- feillərə aid keçmiş bilikləri xatırlatmağa xidmət edən çalışmalar üzərində işin təşkili;
- feillərin qrammatik təhlili;
- feillərin söz birləşməsi və cümlə tərkibində işlədilməsi;
- verilmiş mətndən feillərin müəyyənləşdirilməsi;
- kontekst tərkibində feillərin leksik mənasının izahı;
- feillərin sintaktik funksiyasının diqqətə çatdırılması.

“Feil” bəhsinin tədrisi zamanı şagirdlərin ibtidai siniflərdə əldə etdikləri praktik biliklərə arxalanmağın böyük əhəmiyyəti vardır. Bu zaman şagirdlərin feil üzrə lüğət ehtiyatının öyrənilməsi müəllimin işini asanlaşdırır və gələcəkdə lüğət ehtiyatını hansı feillərlə zənginləşdirəcəyini müəyyənləşdirir. Müəllimin feilin tədrisi zamanı şagirdlərə anlatmalıdır ki, dilimizdə feillər əşyanın hərəkətini, həmin hərəkətin zamanını, həmin hərəkəti icra edən şəxsi və kəmiyyəti bildirir.

Feilin zamanlara görə dəyişməsinin izahı həm şagirdlərin lüğət ehtiyatının feilin zamanlarına aid feillər hesabına zənginləşməsinə, həm də bir qrammatik kateqoriya kimi feilin zamanları haqqında anlayışı mənimsəməyə səbəb olur.

Şagirdlər öyrənirlər ki, feillər zamana görə (keçmiş, indiki, gələcək zaman) dəyişdiyi kimi, şəxslərə görə də dəyişir, kəmiyyətcə tək və cəm olur. Məsələn:

Mən yazıram (yazdım, yazacağam).

Sən yazırsan (yazdın, yazacaqsan).

O yazır (yazdı, yazacaq).

Biz yazırıq (yazdıq, yazacağıq).

Siz yazırsınız (yazdınız, yazacaqsınız).

Onlar yazırlar (yazdılar, yazacaqlar).

Feillərin zaman və şəxs kateqoriyalarını mənimsətmək üçün əvvəlcədən hazırlanmış tablo, plakat və sxemlərdən istifadə edilməsi faydalıdır. Feilin zaman və şəxs kateqoriyalarına aid rəngarəng çalışmaların icrası, fəal təlim üsullarından istifadə həm şagirdlərin lüğət ehtiyatının zənginləşdirilməsinə, həm də feilin kateqoriyalarının mənimsənilməsinə optimal şərait yaradır.

Belə ki, ibtidai siniflərdə morfologiyanın tədrisində lüğət üzrə iş diqqətdən yayınmamalı, feil üzrə biliklər lüğət üzrə işlə sıx əlaqələndirilməli, o cümlədən dilin digər sahələri ilə inteqrasiya edilməlidir. Çünki şagirdlərin lüğət ehtiyatının artırılması işinə kortəbii proses kimi baxmaq olmaz, şagirdlərin lüğətinə daxil olan hər bir sözün mənasının dəqiqləşdirilməsi, fəallaşdırılması və təmizliyi qayğısına qalınmalıdır. Şagirdlərin lüğət ehtiyatının zənginləşdirilməsində feillərin müstəsna rolu olduğu nəzərə alınmalı və bu işə ciddi yanaşılmalıdır.

Qeyd etmək ki, lazımdır ki, kiçikyaşlı öyrənənlər onlara təqdim olunan döymək, dəyişmək, əzmək, doğramaq, vurmaq, bölmək, çəkmək, atmaq, itələmək, sürümək, düşünmək, duymaq, gözləmək, titrəmək, yanaşmaq, xatırlamaq, kədərlənmək, çürümək, coşmaq, suvarmaq, arıtlamaq, xışıldamaq, xarlanmaq, pörtmək, alacalanmaq, sərilmək, hürkmək, yellənmək feillərinin leksik mənasını dərk etməkdə çətinlik çəkirlər. Bu halda, müəllim şagirdlərə həmin feillərin söz birləşməsi və ya cümlə daxilində işlədilməsini təklif etməli, həmçinin yazı lövhəsində cümlələr yazmaqla izah etməlidir.

Azərbaycan dili təlimində feillərin tədrisində lüğət ehtiyatının zənginləşdirilməsi imkanlarının dinləyib-anlama və danışma, oxu, yazı və dil qaydaları məzmun xətləri üzrə dərsliklərdə öz əksini tapmış sözlüklərin, habelə "düşün tap", "mənasını izah et", "düzgün olanını tap", "aydınlaşdır", "əvəz et", "suallara cavab ver" və s. çalışmalarla inteqrativ təşkili səmərəlidir.

Təcrübə göstərir ki, Azərbaycan dili dərsliklərində verilən çalışmalarda feillərin əksəriyyətinin mənası şagirdlər üçün anlaşıqlı deyil. Şagirdlər gözəlləşir, saralır, yaxşılaşır, qaralmaq, yaşıllaşmaq və s. sözləri feil kimi qəbul etmir, zillənmək, qığıldamaq, süzmək, bütövləmək, sarınmaq, qızdırmaq, çaxmaq, duruxmaq, hıçqırmaq və s. feillərin mənasını isə dəqiq dərk etmirlər.

Təcrübi iş prosesində şagirdlərə təqdim olunan döymək, dəyişmək, əzmək, doğramaq, vurmaq, bölmək, çəkmək, atmaq, itələmək, sürümək, düşünmək, duymaq, gözləmək, titrəmək, yanaşmaq, xatırlamaq, kədərlənmək, çürümək, coşmaq, suvarmaq, arıtlamaq, xışıldamaq, xarlanmaq, pörtmək, alacalanmaq, sərilmək, hürkmək, yellənmək feillərinin leksik mənasının dərk olunma səviyyəsini öyrənmək üçün həmin sözlərin söz birləşməsi və ya cümlələrdə işlədilməsi təklif

olunduğu zaman şagirlərin müəyyən qismi feillərin leksik mənasını düzgün əks etdirməklə, bəzi feillərin məna çalarlarını, işlənmə məqamlarını açmağa müvəffəq olmuşlar.

Məsələn, "paltarı dəyişmək", "rəngi dəyişmək", "arabanı çəkmək", "qəm çəkmək", "xatırlamaq", "yada salmaq", "sarımsaq əzmək", "düşməni əzmək", "yerə sərilmək", "paltarın sərilməsi" və s.

Bəzi şagirdlərin duymaq, qamaşmaq, arıtlamaq, xarlanmaq, alacalanmaq, pörtmək, hürkmək, yanaşmaq, coşmaq feillərinin mənasını açmaqda çətinlik çəkdikləri müüəyyən edilmişdir.

Ümumilikdə deyə bilərik ki, "Feil" bəhsinin tədrisi prosesində 50-60 faiz feillərin mənasının müəllim tərəfindən dəqiqləşdirilməsi, həmin feillərin şagirdlərin fəal lüğətinə daxil olması üçün fəal təlim üsullarından, müvafiq çalışmalar sistemindən istifadə etməsi həm bir qrammatik kateqoriya kimi feilin dərk olunmasını, həm də feillər hesabına şagirdlərin lüğətinin zəngin-ləşdirilməsi səviyyəsini yüksəldir.

Leksik minimumun artmasında yeni feillərin öyrədilməsi əsas yerlərdən birini tutur. Qeyd etdik ki, başqa nitq hissələrində olduğu kimi feilin də yeni söz yaratmaq imkanları mövcuddur. Müəllim məhz belə imkanlardan şagirdlərin lüğət ehtiyatını yeni sözlərlə zənginləşdirmək üçün yaraıcı şəkildə istifadə etməlidir. Yuxarıda qeyd edildiyi kimi, feil başqa nitq hissələrinə məxsus sözlər düzəltmək üçün əsas rol oynadığı kimi, başqa nitq hissələrindən də müxtəlif feillər düzəlir. Məsələn, -ma, -mə; -ıntı, -inti, -untu, -üntü və s. şəkilçilərlə feillərdən dolma, süzmə, çəkmə, döymə, toplama, çıxma, vurma, bölmə, qazıntı, çürüntü, gəzinti, tapıntı, qırıntı və s. düzəltmə isimlər; -ıcı, -ici, -ucu, -ücü; -ıq, -ik, -q, -ük, -q, -k və s. şəkilçilərlə feillərdən sağıcı, kəsici, əzik, qopuq, böyük, soyuq və s. düzəltmə sifətlər əmələ gəldiyi kimi, -laş, -ləş; -la, -lə; -lan, -lən; -ar, -ər; -al, -əl şəkilçiləri ilə isim, sifət və saylardan yağla, bağla, gözlə, dişlə, bellə, bollaş, birləş, hallan, dillən, ağar, göyər, qaral, genəl, daral və s. feillər düzəltmək mümkündür. "Ağrımaq" felinin "ağır" sözündən əmələ gəlməsi problemli cəhətlərdəndir. Bu məsələ ilə bağlı olaraq –ı, -i, -u, -ü şəkilçisi haqqında qrammatikada bəzi fikirlər mövcuddur. "Adlardan feil əmələ gətirən şəkilçilər; məsələn, bərk-bərkimək, ağır-ağrımaq, təng-təngimək və s.". Ağrımaq feli sinkretizm əsasında olan sadə feildir[ÇADAP, 2023:15].

Feillərin tədrisi prosesində leksik işlərin aparılmasında əsas nitq hissələri ilə inteqrasiya, fəal təlim üsullarından istifadə( Venn diaqramı, BİBÖ, klaster, anlayışın çıxarılması, mozaika, küblaşdırma və s.) çalışmaların icrası təşkil edilməlidir. "Feil" bəhsinin tədrisində şagirdlərə aşağıdakı çalışmaların icrasını

tələb etmək səmərəlidir:

- Verilmiş mətndəki feilləri seçin və onlara sual verin.
- Kim? nə? suallarına cavab verən sözlərə nə etdi? sualına cavab verən söz əlavə etməklə köçürün: həkim, şagird, Əli, Sənan, dərzi, tibb bacısı, küknar, lalə, bulud, günəş, yağış.
- Hər bir feilə yaxınmənalı söz tapıb yazın: küsmək, gülmək, böyümək, yaşamaq, fikirləşmək, qəmlənmək, vuruşmaq, baxmaq, coşmaq, acıqlanmaq.
- Verilmiş feilləri inkarda işlədin: qurmaq, udmaq, yoxlamaq, uçmaq, davranmaq, hıçqırmaq, tələsmək, bildirmək, yoxlanmaq, güdmək, dolmaq.
- İsim və sifətlərdən feillər düzəldin: bağ, baş, göz, yağ, diş, əl, ayaq, dil, bel, su, ot;

  ağ, gen, dar, yaxşı, göy, pis, xəstə, qara, təmiz, yüngül.
- Verilmiş feillərə əksmənalı feillər tapın: barışmaq, gəlmək, oturmaq, yazmaq, danışmaq, tikmək, vurmaq, toplamaq.
- Hər bir feilin qarşısında mənasını yazın.

| | |
|---|---|
| xoflanmaq | becərmək |
| dilləşmək | bacarmaq |
| güdmək | suvarmaq |

- Verilmiş feilləri cümlələrdə işlədin: görmək, başlamaq, axtarmaq, udmaq, saralmaq, yaşamaq, qürurlanmaq, parıldamaq, donmaq, şırıldamaq.
- Verilmiş sözləri cədvəl üzrə üç sütunda yazın, feil, məsdər və isimləri müqayisə edin. Başçı, başlayır, başmaq, başlamaq, daramaq, damaq, dağılır, dağıtmaq, qaynamaq, qaymaq, qaynayır, qayıtdı, qazmaq, qazacaq, qar, qarmaq, qaralır.
- Nailə tapşırığı yazarkən məsdərləri belə seçdi. Onun səhvini necə düzəltmək olar? Oxumaq, əmək, baxmaq, çomaq, görmək, barmaq, qarmaq, işləmək, kömək, qaymaq, sumaq.
- Verilmiş feillərə bir neçə yaxınmənalı feil tapın. Deyir, gülür, kəsir, vidalaşır, başa düşür.
- Yatdı, getdi, sevinir, ağlayacaq, tutur, bulanacaq sözlərinə əksmənalı feillər tapın və hər birini cümlədə işlədin.
- Ağacı kəsdi, sözünü kəsdi; qapını açdı, söz açdı; qapıya dəydi, xətrinə dəydi; məktəbə çatdı, arzusuna çatdı; suyu tökdü, dil tökdü və s. ifadələrini cümlə içərisində işlət və mənalarını izah et
- Söz birləşmələrini feillərlə əvəz edin: başa salmaq, dilə gəlmək, əldən düşmək, yola salmaq, xəbər vermək, hazır olmaq, fəxr etmək, döyüşə girmək, söz oynatmaq, su vermək.

Mahiyyəti başa düşdükdən sonra öyrənənlər rəqs edir, yola düşdü, başa çatdı, tamaşa edir, qulaq asır kimi söz birləşmələrini asanlıqla müvafiq şəkildə oynayır, getdi, qurtardı, baxır, dinləyir sözləri ilə əvəz edirlər.

Bu cür çalışmaların müxtəlif variantlarından düzəltmə feillər, indiki, keçmiş, gələcək zaman feilləri mövzularının tədrisi zamanı da istifadə etmək olar. Çünki şagirdlər çox vaxt sonu -la, -lə ilə qurtaran, lakin feil olmayan sözlərlə (qüllə, güllə, sillə, tələ, şələ, tarla, kəllə) və s. düzəltmə feilləri; sonu -acaq, -əcək, -yacaq, -yəcək; -caq, -cək şəkilçiləri ilə qurtaran hərəkət məfhumu ifadə etməyən sözlərlə (çapacaq, yatacaq, sancaq, qanacaq, yanacaq, böcək və s.) gələcək zaman feillərini qarışdırırlar. Həm də bu cür sözlərin feillərlə müqayisəsi, həm feil, həm də başqa nitq hissəsi kimi cümlədə işlədilməsi (Anar avtomobilinə yanacaq doldurdu. Yanğınsöndürənlər vaxtında yetişməsə, hər yer yanacaq!) lüğət ehtiyatının zənginləşməsinə, biliklərin daha şüurlu və möhkəm mənimsənilməsinə zəmin yaradır [Cəfərova, 2023:275].

**Nəticə/Conclusion**

Feilin tədrisində lüğət ehtiyatının zənginləşdirilməsi üzrə işlərin sferasının genişləndirilməsi bu mövzunun linqvodidaktik imkanlarından xəbər verir. Şagirdlərin lüğət ehtiyatının zənginləşdirilməsi feilin tədrisinin praktik aspektini təşkil edir. Lakin məsələyə birtərəfli yanaşmağı məqbul etmək olmaz. Odur ki, təlim prosesində lüğət ehtiyatı üzrə işlər nəzəri məlumatlardan qabaq başlasa da, nəzəri məlumatın da praktik yollarla müxtəlif didaktik çalışma növlərindən istifadə olunmasına geniş yer verilməsi məqbul sayılır. Məsələn, sözlər verilir, hər bir sözün qarşıısında onun hərəkətini bildirən bir neçə feilin yazılması; feillər verilir, sxem üzrə cümlələrin qurulması; cümlələrin verilmiş feillərlə tamamlanması; cümlələrin tamamlanması, nöqtələrin yerinə heyvanların necə səs çıxarmasını əlavə edib köçürmək və s.

Çalışmalardan istifadə yolu ilə uşaqlara feillərin çoxmənalılığı çatdırılır. Süzür sözünün mənalarının izah edilməsi, birinci və ikinci cümlələrdə süzür sözünü hansı sözlərlə əvəz etməyin mümkün olmasını, dəydi sözünün hər bir cümlədə hansı məqamlarda işlədilməsinə fikir verilməsi və s. feillərlə lüğət ehtiyatının zənginləşdirilməsinə gətirib çıxarır [Paşayeva, 2007:14].

Əslində, feilin tədrisində lüğət ehtiyatının zənginləşdirilməsi şagirdlərdə nitq zənginliyinin ölçülməsi üçün başlıca kriteriyalardan biri olmaqdadır.

Azərbaycan dili dərslərində feilin tədrisində lüğət ehtiyatının zənginləşdirilməsi üzrə işlərin yalnız dil qaydaları məzmun xəttinə dair imkanlardan ibarət hesab etmək olmaz, çünki bu işin daha yeni və geniş imkanlarını oxu məzmun xətti üzrə standartların reallaşdırılmasında da həyata

keçirmək mümkündür. Feilin tədrisində lüğət ehtiyatının zənginləşdirilməsi üzrə işlər şagirdlərin yaradıcı təfəkkürünə müsbət təsir göstərir. Feilin tədrisində lüğət ehtiyatının zənginləşdirilməsi üzrə işlər şagirdlərin təlim və dərketmə fəallığını yüksəldir. Odur ki, feillərin tədrisi prosesində onun lüğət ehtiyatının zənginləşdirməsi imkanları şagirdlərin nəzərinə çatdırılmalı, interaktiv təlimlə, inteqrativ şəraitdə müqayisə və qarşılaşdırmalarla şagirdlərin fəallığı şəraitində leksik işlər aparılmalıdır. Bu həm şagirdlərin feil mövzusunu şüurlu mənimsəməsinə, həm də lüğət ehtiyatının artırılması optimal təşkil edilməlidir. Ümumiyyətlə, "Feil"in tədrisi prosesində lüğət ehtiyatının artırılması həm elmi, həm təcrübi baxımından səmərəlidir.

## ƏDƏBİYYAT/REFERENCES

1. Azərbaycan Respublikasının ümumtəhsil məktəbləri üçün Azərbaycan dili (dövlət dili kimi) fənni üzrə təhsil proqramı (kurikulumu) (I-XI siniflər) (2023). https://bakimektebleri.edu.az/uploads/manuals_pdf/150805944759 e32937db2de5.05699357.pdf

2. Cəfərova, N.B., Qasımova M.R. (2023) İbtidai siniflərdə Azərbaycan dilinin tədrisi metodikası (dərs vəsaiti). − Bakı: ADPU nəşriyyatı. − 528 s.

3. Cəfərova, N.B. (2019). İbtidai siniflərdə Azərbaycan dilinin tədrisi metodikası − Bakı: ADPU nəşriyyatı. − 528 s.

4. Müasir Azərbaycan dilində feil (2022). Seçmə fənn proqramı https://filologiya.az/ images/PDF

5. Çağdaş Azərbaycan dilinin aktual problemləri (2023). / II Respublika elmi konfransının materialları. Naxçıvan Dövlət Universiteti. − Naxçıvan: "Qeyrət" nəşriyyatı. − s.93.

6. Xəlilov, B. (2018). Azərbaycan dilində feil. − Bakı: Adiloğlu nəşriyyatı. − 224 s.

7. Xəlilov, B. (2016). Müasir Azərbaycan dilinin morfologiyası. − Bakı:Papirus NP. −286 s.

8. Paşayeva, Ş. (2007). Ana dili tədrisində nəzəri və praktik məsələlər. − Bakı, 464 s.

9. https://kayzen.az/blog/az%c9%99rbaycan-dili/1091/felin-qurulu.html

**Məqalə tarixçəsi**
*Daxil olub* *28.04.2025*
*Qəbul edilib* *14.05.2025*
*Nəşrə tövsiyə edib* *Mirvari İsmayılova*
*filologiya elmləri doktoru, professor*